**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 47

**Bakı şəhəri** "04" iyul 2012-ci il

**"Səhiyyə Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə 2012-ci il üçün tələbə qəbulu planı haqqında"**

"2012/2013-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 19 iyun 2012-ci il tarixli 69 nömrəli sərəncamına əsasən Səhiyyə Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə 1589 tələbə qəbulu müəyyən edilmişdir.

Qeyd olunanları nəzərə alaraq

## ƏMR EDİRƏM:

1. 2012-ci ildə ixtisaslar üzrə təsdiq olunmuş tələbə qəbulu planını rəhbər tutaraq icra olunmaq üçün Səhiyyə Nazirliyinin tabeliyində olan tibb kolleclərinə təqdim edilsin.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb kolleclərinin direktorlarına tapşırılsın:

2.1. 2012-ci ilə təsdiq olunmuş tələbə qəbulu planından irəli gələn təşkilatı və metodik məsələlər həll edilməklə yeni tədris ili üçün lazımı tədbirlər görülsün;

2.2. 2012-ci ildə tələbə qəbulunun yekunları barədə Səhiyyə Nazirliyinə məlumat verilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**